# TOLERANTLIQ PROBLEMİ FƏLSƏFİ FENOMEN KİMİ

***Gülçin MEHDİYEVA,***
*AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunun İslam fəlsəfəsi şöbəsinin dissertantı*

***AÇAR SÖZLƏR:*** *tolerantlıq, sosial-fəlsəfi təhlil, sivilizasiya, mədəniyyət, sosiallıq, inteqrasiya, dözümlülük, tolerantlıq subyektləri.*
***КЛЮЧЕВЫЕ СЛОВА:*** *толерантность, социально-философский анализ, цивилизация, культура, социальность, интеграция, терпимость, субъекты толерантности.*
***KEY WORDS:*** *tolerance, socio-philosophical analysis, civilization, culture, sociality, integration, tolerance, subjects of tolerance.*

**Giriş**

Tolerantlıq fundamental kateqoriya kimi Avropa dəyərləri sisteminə Yeni dövrdə daxil olmuş, dini dözümlülük, dini azadlıq və vicdan azadlığı prinsiplərində öz ifadəsini tapmışdır. Tolerantlığın elementləri hələ qədim yunan sofistləri və stoiklərinin hüquq doktrinasında, Aristotelin təlimlərində, orta əsr ilahiyyatçıları Akvinalı Fomanın və Avreli Avqustinin əsərlərində, İntibah dövrü kantonistlərinin (Fransisko de Vitoriya, Fr.Suares) traktatlarında, protestant hüquqşünası və müasir beynəlxalq hüququn yaradıcısı Hüqo Qrotsinin əsərlərində öz əksini tapmışdır. Beynəlxalq hüququn banisi təbii hüququ tolerant dünya nizamını yaratmaq üçün vasitə kimi görürdü.

Vətəndaş cəmiyyətinin əsas prinsiplərindən biri, həmçinin sosial fəlsəfənin problemlərindən olan "tolerantlıq" fenomeninin etimologiyasına nəzər saldıqda onun latın dilində "dözmək" mənasını verən "tolero" sözündən əmələ gəldiyi məlum olur. Bu termin vasitəsilə insan və ya hadisələrin dözümlülüyünün hüdudları və meyarları ideyası ifadə olunur" [1, s.56].

Tolerantlıq yad fikirlərə, etiqadlara, davranışlara dözümlülüyü bildirir. Maltalı tədqiqatçı K.Ueyn belə nəticəyə gəlmişdir ki, tolerantlıq "təkcə başqa adamların əqidəsinə və əməllərinə deyil, yad etnik qrupların nümayəndələrinin özünə də hörmət etməkdir" [2, s.15]. Bu fikir B.Z.Vulfovun mövqeyinə yaxındır. Belə ki, Vulfov tolerantlığı "insanlığın (və ya qrupların) başqa mentalitetə və ya həyat tərzinə məxsus insanlarla (birliklərlə) yanaşı mövcud olmaq qabiliyyəti kimi" [3, s.12] başa düşür. Müəllif bu qabiliyyətin hər insanda sosial mövcudluq kimi formalaşdığını qeyd edir.

Bu fenomen çoxmillətli və müxtəlif dinli dövlətlər üçün xüsusilə aktualdır. Çünki dözümlülüyün obyektləri konkret etnos və konfessiyaların nümayəndələri, yaxud bütövlükdə etnoslar və dinlərdir.

Tolerantlıq fenomenini aşağıdakı kimi çoxtərəfli mövzu şəklində səciyyələndirmək olar:

- Sosio-mədəni sistem dəyəri, şəxsiyyətin fəal məqsədini əks etdirən aktual davranış yönümü kimi;
- Sosio-mədəni qruplarda həmrəyliyi təmin edən, insan fəaliyyətinə rəhbərlik edən prinsip kimi;
- Qarşılıqlı sosial münasibətlərin norması kimi;
- Şəxsiyyətin davranış və fəaliyyətini stimullaşdıran ideal kimi.

**Məqalənin məqsədi** tolerantlıq problemini fəlsəfi fenomen kimi araşdırmaqdır.

İşin metodologiyası və tədqiqat əsası. Məqalənin tədqiqat əsasını müxtəlif ölkə alimlərinin fəlsəfi əsərləri təşkil edir.

Məqalədə kompleks fəlsəfi, antropoloji yanaşma, müqayisəli və aksioloji tədqiqat metodları tətbiq olunmuşdur.

**Məqalənin elmi yeniliyi** problemin qoyuluşuna müəllif yanaşması ilə müəyyən olunur:

- tolerantlıq anlayışı fəlsəfi kateqoriya kimi müəllif tərəfindən əsaslandırılmışdır;
- tolerantlıq fenomeninin məzmunu sosiallaşmanın hərəkətverici qüvvəsi kimi şərh olunmuşdur.

**Məqalənin nəzəri əhəmiyyəti** ondadır ki, tolerantlıq fenomeni fəlsəfi-elmi bilik istiqamətində kompleks tədqiq olunmuşdur.

**Məqalənin praktiki əhəmiyyəti** ondadır ki, onun materialından gənclərin tərbiyəsində istifadə oluna bilər.

**1.Tolerantlıq anlayışının məzmunu və tipologiyası.** Tolerantlıq termini dünyanın müxtəlif xalqlarının dillərində oxşar işlənməsə də, hər bir dildə özünün spesifik xüsusiyyətlərini qoruyub saxlaya bilmişdir: "1) Tolerantlıq ingilis dilində "tolerance" şəklində olub, dözümlülüklə yanaşı, "yola vermək" mənasını da ifadə edir; 2) ispan dilində "tolerancia" öz ideya və rəyindən fərqli olanların qəbul edilməsi üsulu; 3) fransız dilində "tolerance" başqalarının düşüncə və əməllərinə yol verilməsinə münasibəti bildirir; 4) Çin dilində "kuan rong" digərlərinə münasibətdə alicənablıq, mərdlik nümayiş etdirməkdir; 5) ərəb dilində  başqalarına qayğı, mərhəmət, dözümlülük göstərməkdir; 6) rus dilində dözümlülük mənasında işlənən bu anlayış başqalarının rəyi ilə razılaşmaq, mövcudluqla barışmaq mənasını da bildirir" [4, s.2].

Tolerantlıq fenomeni bir çox humanitar elmlərin, o cümlədən fəlsəfənin tədqiqat obyektidir. Elmi dövriyyəyə "tolerantlıq" terminini ingilis immunoloqu P.Medovar daxil etmişdir.

Elmi ədəbiyyatda tolerantlığın aşağıdakı tipləri göstərilmişdir:

1) Gender tolerantlığı; 2) Yaş tolerantlığı; 3) Təhsil tolerantlığı; 4) Millətlərarası tolerantlıq; 5) İrqi tolerantlıq; 6) Coğrafi tolerantlıq; 7) Siniflərarası tolerantlıq; 8) Fizioloji tolerantlıq; 9) Siyasi tolerantlıq; 10) Marginal tolerantlıq; 11) Dini tolerantlıq.

Rusiyalı tədqiqatçı A.Q.Asmolov ""tolerantlıq" anlayışının məzmununda üç aspekti fərqləndirib: onlardan biri möhkəmlik, ikincisi dözümlülük, üçüncüsü yola verməkdir" [5, s.7].

Bütün müasir millətlər dini, siyasi və mədəni münasibətlərdə daha plüralistdirlər. Ənənəvi birliklər və cəmiyyətlər mədəniyyətlərdəki, dinlərdəki fundamental ənənələr hesabına öz vəhdətini qoruyub saxlaya bilirlər. Mədəni və dini plüralizmin inkişaf etdiyi ölkələrdə

tolerantlıq daha güclü olur. Sosio-mədəni məkanda eyni zamanda baş verən inteqrasiya və dağılmanın dialektik prosesi müasir sosio-humanitar diskursun bütün səviyyələrində tolerantlıq problemini aktuallaşdırır.

Tolerantlıq fenomeni etik-dini, sosial-siyasi və etik-fəlsəfi rakurslardan dərk və qəbul edilir. Dialogizm, dialoji refleksiyalara əsaslanan tolerantlıq fenomeni başqalarına hörmət və özgələrin qəbul edilməsi baxımından dəyər mahiyyəti kəsb edərək onlar vasitəsilə açılır. V.A.Lektorski "Tolerantlıq, plüralizm və tənqid haqqında" məqaləsində "tolerantlıq" anlayışının müəyyən edilməsinin və mənalı məzmununun aktuallığını ardıcıl olaraq ifadə etmişdir. O, "tolerantlıq" anlayışının dörd izahını vermişdir:

- "Laqeydlik. Liberal siyasi əsasa malikdir. Onun fikrincə, bütöv cəmiyyətin problemləri insanlar arasındakı müxtəlifliyin mövcudluğundan daha vacibdir;
- Qarşılıqlı anlaşmanın mümkünsüzlüyü. Bizi başqa bir mədəniyyət və ya davranış dərk edə bilməz, ona görə də biz ona qarşı əvvəldən düşmən mövqeyində olmamalıyıq;
- Başqalarının zəif tərəflərinə qarşı çıxmaq;
- Öz təcrübələrini və vacib dialoqları genişləndirmək" [6, s.46].

Deməli, tolerantlıq ya başlanğıc mövqe, ya da öz-özlüyündə dəyərli, iştirakçıları qane edən və onlara dəstək verən münasibətlər forması ola bilər. Bu halda tolerantlıq Lektorskinin təsnifatının birinci variantında, müxtəlif ölkələrin, xalqların və fərdlərin maraqlarının müxtəlifliyini qəbul edən demokratiyanın həyata keçirilməsinin minimum şərti, hamıya dair qəbul edilmiş etinasızlıq kimi başa düşülür. Təkmədəniyyətliliyə və qeyri-demokratik siyasi sistemlərə xas olan "özgə" mədəniyyətlərə və siyasi sistemlərə qarşı dözümsüzlükdən demokratiyaya və multikulturalizmə keçid zamanı sadəcə tolerant münasibətlərə deyil, digər ölkələrə, etnoslara, onların mədəniyyətlərinə, xüsusiyyətlərinə və açıqlığa da üstünlük verilməlidir.

**2.Tolerantlıq fenomeninin sosio-mədəni mahiyyəti**. XX əsrin sonları-XXI əsrin əvvəllərində mədəniyyətlərin, dinlərin qlobal transformasiyalarının intensiv qarşılıqlı əlaqəsinin təsiri altında tolerantlıq anlayışı sosial-mədəni və siyasi cəhətdən dəyərləndirilir. Tolerantlığın ümumi mədəni və dini dəyər kimi bərqərar olması zamanı başqa mədəniyyətlərə və dinlərə hörmət münasibəti formalaşır. Şübhəsiz ki, bu, cəmiyyətin inkişafında mühüm birləşdirici rol oynayır. Tolerantlıq həmişə dialoq təcrübəsilə əlaqədardır. Onun subyekti ayrı-ayrı şəxsiyyətlər, həm də sosio-mədəni birliklərdir. Aydındır ki, fanatik terrorçulara, amansız qatillərin qanlı əməllərinə qarşı dözümlülük qeyri-mümkündür. N.Fedotova tolerantlığın dinc, konstruktiv yönümünü və dialoqa hazır olduğunu dəstəkləyərək onu belə müəyyən edir: "Bu, əxlaqdan fərqlənməyən, başqalarının haqlı mənafelərinin qanuniliyinin tanınmasını və təcrübəsinin açıqlığını, dialoqa hazır olmasını genişləndirməkdir [7, s.134]. Müəllif haqlı olaraq problemin legitimliyinə və mənəvi aspektinə istinad edir. Çünki sosioloji tədqiqatların nəticələrinə görə, postkommunist ölkələrində tolerantlıq müsbət təzahürləri ilə yanaşı, nisbətən mənfi şəkildə də özünü göstərir.

Belarusiyalı alim O.V.Kurbaçova bildirir ki, "tolerantlıq məhz mədəniyyətlərarası (eyni zamanda dinlərarası – G.M.) dialoq kimi çıxış edir. Lakin dialoq zahiri, mexaniki deyil,

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Jurnalı

tənqidi olmalıdır" [8, s.16]. Müəllif tənqidi dialoq dedikdə həm özünün, həm də başqasının mədəniyyətinə və dininə hörməti, özünün və yad mövqelərə tənqidi yanaşmanı nəzərdə tutur.

Dialoqu müasir svilizasiyanın gələcək taleyi, ayrılmaz elementi hesab edirlər. Bəşəriyyətin birgə yaşayışı, yeni paradiqmaların reallaşması dialoq fəlsəfəsindən asılıdır. "Bütün bunların açarı isə məhz dialoq fəlsəfəsində sivilizasiyalararası, mədəniyyətlərarası, insanlararası, xüsusilə dinlərarası dialoq fəlsəfəsindən keçir və orada gizlənmişdir" [9, s.49]. Müəllif dialoq fəlsəfəsinin yüksək mədəniyyət, şüur, etiqad prinsiplərinin dərin qatlarında gizləndiyini qeyd etmişdir.

Müasir fəlsəfədə zorakılıq, müharibə və sülh problemlərini tədqiq edən A.A.Hüseynov haqlı olaraq bildirir ki, "zorakılığın lehinə heç bir mənəvi arqument yoxdur və buna baxmayaraq, zorakı aksiyalar həmişə mənəvi aktlarla müşayiət olunur" [10, s.27]. Məhz buna görə də dünya problemlərinin mahiyyətinin qeyd-şərtsiz dərk olunması və zorakılığın məqsədə nail olmaq üçün "səmərəli üsul" kimi əsaslandırılması ilə əlaqədar ictimai qarşılıqlı münasibətlərin bütün sahələrində tolerant mövcudluğun anlaşılması məsələsi kəskin şəkildə gündəmə gəlir.

İnsanın mövcudluğu problemi həmişə ontoloji cəhətdən açıqdır və hər hansı əmrlər, sistemlər, qanunlar insanı, dünyanı pislikdən və özbaşınalıqdan qoruya bilməz. "İnsanın tolerant identikliyi problemi yuxarıda göstərilən çağırışlar, təhdidlər və bəyanatlar kontekstində S.A.Smirnov tərəfindən müəyyən edilmişdir" [11, s.72]. Yeni, qlobal şəxsiyyət formalaşdırmaq üçün nümunəvi, real təcrübə əldə etmək lazımdır. Nəticədə, müəllif tolerantlığın davamlı sülh və ədalət dəyəri kimi yeni bir şəkildə şərh edilməli olduğunu düşünür. Bir insanı sosial-mədəni şəxsiyyət olaraq yeni dövrə, nəsildən-nəslə keçirən, onun daxili azadlığını qoruyan tolerantlıqdır. Bu baxımdan, müəllif tolerantlığın ontoloji əsaslarının təhlilinin perspektivli və olduqca nəzəri cəhətdən əsaslandırıldığına inanır.

Məlum olduğu kimi, bəzi cəmiyyətlər dağıdıcı amillərə yalnız güclə müqavimət göstərməyə qadirdir. Bu cür cəmiyyətlər aşağıdakı dəyər yönümlərini: kömək etməyə hazır olmağı, xeyirxah olmağı və sairəni inkişaf etdirirlər. İnsanlar öz aralarındakı münasibətlərin real sisteminə daxil edilmiş müxtəlif davranış modellərində milli adət-ənənələrlə bağlı tarixi təcrübəni sonrakı nəsillərə ötürürlər. Lakin ənənəvi cəmiyyətdə qrup daxilindəki inteqrasiya kənardakı dağıdıcı amillərə qarşı durur. Burada "başqasının" düşmən obrazı "özününkülər"lə birləşmək vasitəsi kimi istifadə olunur. V.İ.Qaraca belə qənaətə gəlir ki, "tolerantlıq ideyası dözümlülük şüurunun formalaşması problemindən kənara çıxır və onu dini ədavətin əleyhinə təsirli vasitə yaradan tolerant cəmiyyətin formalaşması prosesi ilə əlaqələndirir. Bu isə müxtəlif mədəniyyətlərin, dini ənənələrin, siyasi və dünyagörüşlü plüralizmin ahəngdar birgəyaşayış şəraitini təmin" [12, s.21]. Deməli, tolerantlıq fenomenini qəbul etmə, hörmət, dialoqa hazır olma, anlaşma, dinlərarası, millətlərarası, mədəniyyətlərarası və insanlararası qarşılıqlı əlaqənin ən mühüm forması kimi səciyyələndirmək olar. Buna baxmayaraq, psixoloji, sosioloji və fəlsəfi təriflərdə tolerantlıq laqeydlik kimi müəyyən edilmir. Tolerant münasibət öz-özlüyündə digərinin və başqalarının mövcudluğu hüququnun tanınmasıdır. Bununla belə, 1948-ci il BMT-nin İnsan Haqları Bəyannaməsində təsbit edilmiş demokratik qurumların sabitliyinin, insan hüquqlarının və azadlıqlarının qorunmasının, insana hörmətin, iqtisadi və maliyyə sahəsində

əldə olunan uğurların yalnız tolerantlıq xüsusiyyətinə malik olması ciddi təhlükə yaradır. Demokratik dövlətlərin konstitusiyalarında və beynəlxalq sənəddə - BMT Nizamnaməsində göstərilən fərqli xalqların ədalətli və dinc yanaşı yaşamaq hüququ, praktikada dözümsüz hakim rejimlərə qarşı güc tətbiq edilməsi üçün mənəvi dəlilləri əsaslandırmağa səbəb olur. Beynəlxalq hüququn, sülhün, beynəlxalq münasibətlərin fəlsəfəsinin hamı tərəfindən qəbul edilmiş prinsip və normalarının pozulmasının nəticələri bu konkret tarixi vəziyyətdə hələ ki dərk edilməmişdir, lakin "ikili standart" prinsipinin güclülər üçün məqbul olduğu halda tolerantlıq metodları ilə demokratiya və dözümlülük mühitinin yaranmasında çətinliklərlə üzləşmək olar. A.Xeller yüksək əxlaqdan danışarkən müasir insanın mənəviyyatını nəzərdə tutur. Elm dünyanın dərkində həqiqətin təminatçısı kimi dini əvəz edərkən ciddi dəyişiklik baş verir

Tolerantlıq bütün bu sosial münasibətlərdə humanizm, demokratizm, dünyagörüşü yetkinliyi, vətəndaş məsuliyyəti və fəallıq, milli özünüdərk, yüksək mədəniyyət səviyyəsi olub, həm də çoxmədəniyyətlilik əlaməti kimi çıxış edir. Tolerantlığın əhəmiyyətli səciyyəsi kimi aşağıdakıları göstərirlər:

- "Fərqli fikir, siyasi, dini, etnik və digər baxışlar aləmində müxtəlifliyin bərabərhüquqlu və yolverilən mövcudluğunun qəbul edilməsi;
- Başqa insanların hüquq və azadlıqlarının qəbul edilməsi;
- Yad fikirlərə, etiqadlara və davranışlara hörmətlə yanaşma, dözümlü münasibət;
- İnsanlara öz fikirlərini açıq ifadə etməyə imkan yaradılması;
- Başqaları ilə dialoqa girmək və anlaşıqlı olmaq əhval-ruhiyyəsi;
- Müxtəlif maraqların, rəylərin ahəngdarlığına nail olunmasına cəhd edilməsi, izah etmə və inandırma metodlarına üstünlük verilməsi;
- Başqa insanları öz fikirlərindən, etiqadlarından, davranışlarından çəkindirmək məqsədilə güc, təzyiq vasitələrindən istifadəyə yol verilməməsi;
- Başqalarının dəyərlərinin müdafiə edilməsi, müasir cəmiyyətin plüralizm və müxtəlifliyinin qəbul edilməsi" [13, s.20-21].

Deməli, tolerantlıq çox aspektli, müxtəlif sahəli anlayışdır. Tolerantlıqda sosial, dini, etnoslararası, millətlərarası, gender, şəxsiyyətlərarası aspektlər xüsusilə diqqəti cəlb edir. Bir sözlə, o, başqalarına, yadlara, digər mədəni-dini ənənələrə liberal, hörmətlə münasibətdir, unikal, özünəməxsus, ümumbəşəri səviyyədir.

Dözümlülüyü müasir dünyanın xilaskarı hesab edirlər. Bu dəyər digər dəyərlər kimi, səhvən mütləqləşdirilir və geniş təfsir olunur. Beləliklə, tolerantlığın qiymətləndirmə və münaqişələrin həlli, həmçinin zorakılığın qarşısının alınması vasitəsi kimi əhəmiyyəti onun həqiqi dəyərini müəyyən etmək baxımından diqqətəlayiqdir.

**3.Tolerantlığın əsas prinsipləri.** Müasir dövr bəşəriyyət qarşısında mövcud müxtəlifliyin vəhdəti vəzifəsini qoyur. Bu isə yalnız milli, dini müstəsnalığın inkar edilməsi əsasında mümkündür. Plüralizmin, mədəniyyətlərin, kiçik xalqların özünü dərketməsinin inkişafı tolerantlığı, yad ənənələrə hörmətlə münasibəti zərurətə çevirir. Rusiyalı tədqiqatçı L.V.Bayeva tolerantlığın aşağıdakı prinsiplərini göstərir: "Birincisi, bu, açıqlıq, tolerantlıq dəyərlərini, onların ləyaqətini və səmərəliliyini təsdiqləyən, bəşəriyyət tarixində mövcud olan

klassik təlimlərə müraciət edilməsidir. İkincisi, bu, müxtəlif xalqların özəl xüsusiyyətləri olmasına baxmayaraq, əsas dəyərlər aləminin vəhdətinin axtarışı və əsaslandırılmasıdır" [14, s.5]. Bu o demək deyildir ki, müasir plüralizm dövrü avtomatik olaraq tolerantlıq zəmanəsinə çevrilmişdir. Öz ənənələrindən imtina etmək, tarixi əsasların kosmopolitlik xətrinə unudulması heç də tolerantlıq demək deyildir. Çünki tolerantlıq başqalarına, həm də digər xalqların yaddaşına hörmətin təzahürüdür.

Qlobal transformasiyalar dövründə tolerantlıq milli-mədəni identikliyin, özünəməxsusluğun, unikallığın, qorunmasını təmin edən güclü vasitədir. Amerikalı tədqiqatçı Maykl Uoltser özünün məşhur "Dözümlülük haqqında" əsərində dözümlülüyə şərait yaradan beş tolerant rejimi fərqləndirir: "1. Çoxmillətli imperiyalar; 2. Beynəlxalq birliklər; 3. Konservativ tipli quruluşa malik ölkələr (Belçika və İsveçrə); 4. Fransa tipli milli dövlətlər; 5 Mühacir cəmiyyətlərinin üstünlük təşkil etdiyi dövlətlər (ABŞ)" [15, s.25]. Göründüyü kimi, müəllif göstərir ki, beynəlxalq aləmdə tolerantlığın obyekti suverenliyə malik olan ayrı-ayrı dövlətlər ola bilər.

Ümumbəşəri miqyasda tolerant şüurun inkişafına əngəl olan amillərdən biri qərbləşmə, Qərbin mədəni ekspansiyasıdır. Yurgen Habermas beynəlxalq hüququn aktorları arasındakı münasibətlərin hüquqi nizamlayıcısının inkişafı vektoruna dair mülahizəsində qeyd edir ki, "problem, ümumiyyətlə, millətlər arasında ədalətin mümkünlüyü və qeyri-mümkünlüyündə deyil, hüququn bu cür ədalətə uyğun olub-olmamasındadır" [16, s.12]. Liberal və qlobal fövqəldövlətin beynəlxalq hüquq prosedurlarını öz mənəvi arqumentləri ilə əvəz etdiyi aktorların arasındakı əlaqələrin tənzimlənməsində müasir beynəlxalq hüququn real rolu nədən ibarətdir? Beynəlxalq münasibətlərin konstitusiya layihəsini həyata keçirmək hüququna malikdirmi? Ədalətli ictimai nizamın Kant və Şmit layihələrini nəzərdən keçirərkən, müqayisə edərkən, filosof mübahisələrin nizama salınmasının beynəlxalq hüquqi mexanizmlərin pozulmasının real mənzərəsini qeyd edir. O, belə qənaətə gəlir ki, BMT-nin kiçik effektivliyi və onun səmərəli fəaliyyət göstərə bilməməsi dünya nizamının konstitusiya quruluşu layihəsinin başlanğıc şərtlərindən imtina etmək üçün yetərli səbəb deyildir. Bu, tolerantlığın normalarla müəyyən edilməsinin bəyan edilmiş probleminin hüquqi təbəqəsidir və milli hökumətlər tərəfindən qərarların qəbul edilməsinin yalnız əhəmiyyətinə görə deyil, həm də beynəlxalq qanunun müddəalarına uyğun olaraq, millətlərin, xalqların və dövlətlərin dinc yanaşı yaşaması millətlərin birliyi dövründən bəri ən yaxşı sərvət elan olunmuş və 1928-ci ildən etibarən Brian-Kelloq paktında təsbit edilmişdir.

Bəzən tolerantlıq fərdi şüurun səciyyəsi, şəxsiyyətin xüsusiyyəti, müəyyən tərbiyə ilə əldə olunan keyfiyyət kimi nəzərdən keçirilir. Həqiqi tolerantlıq öz əhəmiyyətli fərdi və qrup fərqləri əsasında dəyər mühakiməsindən imtina edilməsindən ibarətdir. Bunlar zahiri sima, milli xarakter xüsusiyyətləri, mədəni şərtlənmiş davranışlardır. "Həqiqi tolerantlıq inkişaf etmiş şəxsiyyətin dəyərli keyfiyyətidir. Daha doğrusu, fədakarlıq naminə belə şəxsiyyətlər digərlərinin alçaldılmasını istəmirlər. Eyni zamanda, bu keyfiyyət ideologiya, ünsiyyət və davranış sahələrində mənfi hadisələrə təbii, sağlam nifrəti tələb edir" [17, s.11].

Fəlsəfə tarixində tolerantlığa dair aşağıdakı nəzəriyyələr mövcud olmuşdur:

**1.** Naturalist nəzəriyyə;
**2.** Psixoanalitik versiya;
**3.** Tolerantlığın kommunikativ versiyası;
**4.** Tolerantlığın etik-aksioloji versiyası.

Sosio-humanitar ədəbiyyatda tolerantlığın təhlilinə dair müxtəlif yanaşmalar olduğundan bəhs edilir. Tolerantlığın sosial-fəlsəfi təhlili üçün ən məhsuldar olan sivilizasion, ekzistensial – fenomenoloji və antropoloji yanaşmalarla sıx bağlı olan sosio-mədəni problemdir. Sosio-mədəni yanaşmaya görə, cəmiyyət mədəniyyət və sosiallığın vəhdəti kimi tədqiq olunur. Ayrılmaz triada – şəxsiyyət, cəmiyyət və mədəniyyət bir-birilə qarşılıqlı əlaqədardır. Bu yanaşma cəmiyyətdə tolerantlıq prinsipləri ilə inteqrasiya proseslərini qarşılıqlı əlaqədə araşdırır. Dözümlülük sosio-mədəni norma kimi yalnız müxtəlif mədəniyyətlərin vəhdətdə mövcudluğunu təsdiq etmir, həm də tolerantlıq subyektlərini ümumi dəyərlərin axtarışına yönəldir. Sosial-fəlsəfi fikirdə tolerantlığın genezisinin təhlilinin gedişində holizm və nominalizm konsepsiyaları aşkar olunmuşdur. Tolerantlığın holizm aspektində mənəvi əsasda bəşəriyyətin vəhdətinə inteqrasiya baş verir. Nominalizm aspektində tolerantlıq prinsipinin əsas vəzifəsi şəxsiyyətin azadlığının formalaşdırılmasıdır.

**Nəticə**

Elmi ədəbiyyatda tolerantlıq fenomeninin təfsiri əsas fəlsəfi anlayış kimi təqdim olunmuş, müxtəlif sistemlərin mövcudluğu şəraitində insan, millət, eləcə də xalq arasındakı tolerantlığın dəyəri ilə identikliyin aktuallığı problemi diqqətə çatdırılmışdır. Burada bəşəriyyətin qarşısında duran “dünya problemləri” adlı fənlərarası tədqiqat paradiqması göstərilmişdir. Beynəlxalq hüquq, sosial fəlsəfə, politologiya, sosiologiya kontekstində dünyaya və insana dair yeni təhdidlər qeyd edilmiş, qloballaşma dövründə müasir fəlsəfi biliklərin rolu göstərilmişdir.

İlk baxışda tolerantlıq ideyası kifayət qədər sadə görünür, əslində isə o, ilkin ciddi şərtlərdən irəli gəlir. O, bir sıra prinsipial fəlsəfi məsələlərlə - insanın dərk edilməsi, onun kimliyi, idrakı və qarşılıqlı anlaşma imkanları, hüdudları ilə bağlıdır. Tolerantlıq haqqında diskussiyaların aktuallığı, ilk növbədə, sivilizasiyalararası əlaqələrin ontologiyasında ildən-ilə daha parlaq şəkildə təzahür edən dözümsüzlüklə, bir tərəfdən qloballaşma proseslərinin və sosiumların lokal mənsubluğu, digər tərəfdən, mədəni müxtəlifliyin artması və onun inteqrasiya, “demokratik və ədalətli” standarta uyğunlaşmaq istəyi ilə, ikinci növbədə isə, bəzən tolerantlığın paradoksal tərifləri, bununla belə, tədqiqatçıların sosial-mədəni eyniliyi ilə bağlıdır.

# ƏDƏBİYYAT


1. Библер В.С. От наукоучение к логике культуры: два философских введения в 21 век. Москва: Политиздат, 1991, 412 с.
2. Уейн К. Образование и толерантность // Высшее образование в Европе, 1997, № 2, с. 14-28.
3. Вульфов Б.З. Воспитание толерантности: сущность и средства // Внешкольник, 2002, № 6, с. 12-16.
4. Сультеев Д. Единство разных (к Международному дню толерантности) // Воспитание школников, 2008, № 9, с. 1-12.
5. Асмолов А.Г. На пути к толерантному сознанию. Москва: Политиздант, 2002, 210 с.
6. Лекторский В.А. О толерантности, плюрализме и критицизме // Вопросы философии, 1997, № 11, с. 46-54..
7. Хеллер А. Два столпа современной этики // Вопросы философии, 2004, № 3, с. 27-37.
8. Курбачёва О.В. Концептуально-теоретическое осмысление феномена толерантности: историко-философский экскурс // журнал Беларуского Государственного университета. Философия. Психология, 2017, № 2, с. 12-16.
9. Zeynalov Ş.Ə. Dialoq fəlsəfəsi. Bakı: Avropa, 2017, 304 s.
10. Гусейнов А.А. Возможно ли моральное оправдание насилия? // Вопросы философии, 2004, № 3, с. 19-27.
11. Смирнов С.А. Бытие свободы или проблема культурной идентичности в ситуации онтологического перехода // Вопросы философии, 2004, № 6, с. 58-85.
12. Гараджа В.И. Толерантность и религиозная нетерпимость // Философские науки, 2004, № 3, с. 18-32.
13. Смольянинова О.Г. и другие. Теория и практика развития толерантности средствами поликультурной образовательной платформы. Сибирского федерального университета / отв. ред. О.Г.Смольянинова. Красноярск: Сибирский федеральный университет, 2016, 106 с.
14. Баева Л.В. Толеранстность: идея, образы, персоналии. Астрахань: Издательский дом «Астарханский университет», 2009, 217 с.
15. Уолцер М. О терпимости. Москва: Акт, 2000, 221 с.
16. Хабермас Ю. Спор о прошлом и будущем международного права. Переход от национального к постнациональному контексту // Вопросы философии, 2004, № 3, с. 12-19.
17. Толерантность как атрибут современной жизни: понятие и принципы формирования. Тула: ГОУ ДПО ТО , 2017, 208 с.
18. Федотова В.Г. Глобализация и терроризм // Космополис, 2003, № 3(5), с. 133-147.

Гюльчин Мехдиева

## ПРОБЛЕМА ТОЛЕРАНТНОСТИ КАК ФИЛОСОФСКОГО ФЕНОМЕНА


АННОТАЦИЯ

В статье анализируется проблема толерантности с социально-философской точки зрения. Вводная часть работы затрагивает ее цель, методологию, научное новаторство, теоретическое и практическое значение, содержание и типологию концепции толерантности, теории толерантности, социокультурную сущность и принципы. Современные демократические общества требуют свободного самовыражения, понимания различных культурных и религиозных традиций, толерантных философских учений, сотрудничества между странами и народами, формирования толерантного сознания. В статье также подчеркивается существование экономических, антропологических, психологических, синтетических или комплексных подходов.


Gulchin Mehdieva

## THE PROBLEM OF TOLERANCE AS A PHILOSOPHICAL PHENOMENON


ABSTRACT

The article analyzes the problem of tolerance from a socio-philosophical point of view. The introductory part of the work touches on its purpose, methodology, scientific innovation, theoretical and practical value, content and typology of the concept of tolerance, theory of tolerance, socio-cultural essence and principles. Modern democratic societies require free self-expression, understanding of various cultural and religious traditions, tolerant philosophical teachings, cooperation between countries and peoples, the formation of a tolerant consciousness. The article also highlights the existence of economic, anthropological, psychological, synthetic or complex approaches.